# Azərbaycan Respublikası - Pakistan İslam Respublikası münasibətləri

**Qısa tarixi məlumat:**

Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan dövlətlərdən biri Pakistan İslam Respublikası olmuşdur (12 dekabr 1991-ci il). İki ölkə arasında diplomatik əlaqələr 9 iyun 1992-ci ildə qurulmuşdur. Pakistan İslam Respublikasının Bakıda səfirliyi 12 mart 1993-cü ildə, Azərbaycan Respublikasının İslamabadda səfirliyi 24 avqust 1997-ci ildə təsis edilmişdir. Hazırda, Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında səfiri Daşqın Şikarovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşləri:**

**Dövlət başçıları:**

**1995-ci il 9-11 oktyabr -** Pakistan İslam Respublikasının Prezidenti Sərdar Faruq Əhməd Xan Leqari Azərbaycana rəsmi səfər etmişdir.

**1996-cı il 9-11 aprel -** Prezident Heydər Əliyev Pakistana rəsmi səfər etmişdir.

**2004-cü il 8-10 iyul -** Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf Azərbaycana rəsmi səfər etmişdir.

**2005-ci il 12-13 aprel -** Prezident İlham Əliyev Pakistana rəsmi səfər etmişdir.

**2012-cı il 13-16 oktyabr -** Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 12-ci Zirvə Toplantısı).

**Hökumət başçıları:**

**2006-cı il 5-7 may -** Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əziz Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu Zirvə Toplantısı).

**Xarici İşlər Nazirləri:**

**1994-cü il 24 yanvar -** Pakistanın xarici işlər naziri Sərdar Asif Əhməd Azərbaycana rəsmi səfər etmişdir.

**1995-ci il 14-15 mart -** xarici işlər naziri Həsən Həsənov Pakistana rəsmi səfər etmişdir (İslam Konfransı Təşkilatının 3-cü Zirvə Toplantısı).

**1999-cu il 8-21 may -** Pakistanın xarici işlər üzrə dövlət naziri Məhəmməd Siddiq Xan Kanju Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının xarici işlər nazirləri Şurasının 9-cu iclası).

**2006-cı il 3 may** – Pakistan İslam Respublikasının xarici işlər naziri X.M.Kasuri Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısı).

**2006-cı il 19-21 iyun** – Pakistan İslam Respublikasının xarici işlər naziri X.M.Kasuri Azərbaycana işgüzar səfər etmişdir (İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 33-cü Sessiyası).

**2007-ci il 15-17 may -** Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Pakistana işgüzar səfər etmişdir (İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 34-cü konfransı).

**2010-cu il 15 iyun** – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Pakistana işgüzar səfər etmişdir.

**2012-ci il 13-16 oktyabr** – Pakistan İslam Respublikasının xarici işlər naziri Hina Rabbani Xar Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 12-ci Zirvə toplantısı).

**<u>Parlamentlərarası əlaqələr:</u>**

**2008-ci il 18-20 iyun -** Pakistan Senatının Sədri M.Sumro Azərbaycana səfər etmişdir (Azərbaycan Parlamentinin 90 illiyi münasibətilə keçirilmiş tədbir).

**2013-cü il 11-12 fevral** - Milli Məclisin Sədri Oqtay Əsədov Pakistana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının Parlamentlərarası Assambleyasının 1-ci iclası).

Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əliağa Hüseynovdur.

**<u>Humanitar sahədə əməkdaşlıq:</u>**

**Mədəni və humanitar tədbirlər:**

**2008-ci ildə** Heydər Əliyev Fondu tərəfindən Pakistanda zəlzələdən zərər çəkmiş qızlar üçün orta məktəb tikilmiş, 2010-cu ildə əsaslı təmir edilmiş, Həmzə Xeyriyyə Fonduna xüsusi qanköçürmə və kiçik laboratoriya ilə təchiz olunmuş, 1 ədəd təcili tibbi yardım avtomobili və 2000 ədəd qanköçürmə paketi təqdim olunmuşdur.

**2010-cu ildə** Pakistanda baş vermiş sel fəlakətinin nəticələrinin aradan qaldırılması məqsədilə Azərbaycan Pakistana 2 milyon ABŞ dolları həcmində maddi yardım etmişdir.
**2012-2013-cü illərdə** Heydər Əliyev Fondu tərəfindən Qurban və Ramazan bayramları ərəfəsində humanitar xarakterli tədbirlər keçirilmişdir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 30 sənəd imzalanmışdır.

***Azərbaycan Respublikasının Pakistan İslam Respublikası Səfirliyinin rəsmi internet səhifəsi:*** www.azembassy.com.pk

*Son yenilənmə tarixi: 21.02.2014*